Kredo 2019.- 20 mart.- S.16.

# Dünyada qalan Əvəz Süleyman



Düz 20 gündən sonra Əvəz Süleymanın 77 yaşı olacaqdır. Əlbəttə, əcəldən aman olsaydı.

Küləklər təbiətin ruhunu təzələyir. Qış ötür, yaz gəlir - təbiət yuxudan oyanır, çöllərin rəngi dəyişir, tumurcuqlar çırpınmaqdadır. Yatmaqdan doymuş təbiət ağac, bitki, gül-çiçək canı ilə oyanır.

İnsan isə ömrünü bitirəndə əbədi bir yuxu aləminin qapısını açır və bir də geri qayıtmır. Dini əfsanəyə görə Süleyman da neçə yüz ildən sonra bir gün ömrünü bitirib, həyata vida deyir. Dünya haqqında çox deyilib. Süleymanı saxlamayan dünya, daha kimi saxlayacaq. Ancaq yox... saxladığı da var.

Gəlib gördüyü, yaşayıb tanıdığı dünyanı bir az da yaşarı etmək üçün çalışanların izi itməz.

Əvəz Süleyman da dünyaya yaşamaq, yaratmaq üçün gəlmişdi. Təkcə yaşayıb sıradan bir ömür sahibi olsaydı, onun da izi qalmazdı, amma Əvəz Süleyman bir yazıçı ömrü yaşadı. Yazdığı, yaratdığı dəyərli əsərləri ilə dünyaya söz donu biçdi. Yaşamağın dəyərini yazmaqda, yaratmaqda gördü.

Əvəz Süleyman (Süleymanov Əvəz Sirac oğlu) 1942-ci il aprelin 10-da Ağsu rayonunun Qırlar kəndində anadan olub. Orta təhsilini Ağsu rayonunun Sanqalan kənd 8 illik məktəbində və Ağsu qəsəbə orta məktəbində alıb (1961). Ağsu Pedaqoji Məktəbini (1963), Azərbaycan Dövlət Pedaqoji İnstitutunu (1969) bitirib. Kürdəmir rayonunun Pirli kənd 8 illik məktəbində (1963-1967), Ağsu rayonunun Sanqalan kənd 8 illik məktəbində (1967-1973), Şamaxı rayonunun Çıraqlı kəndində (1973-1991) məktəb direktoru işləyib. "Tək qardaş ömrü", "Əzab", "Əfsanəyə çevrilən ömür", "Pələng balaları haqqında şəkilli kitab", "Köhnə dərd" və "Döy məni, ana, döy", "Dərd yazanın dərdi" və sair kitabların müəllifidir. Yazıçı-publisist Əvəz Süleyman 2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl Qələm" və 2010-cu ildə "Sərhəd qoşunlarının müsabiqəsi" mükafatı laureatı idi.

O, ədəbiyyata bir qədər gec gəlmişdi. Əvəzində qələmi əlinə götürüb yazmağa başlayanda, tam həyati müşahidələrlə dolu bir ömür dastanını sözə gətirdi. İlk kitabı gözlədiyi uğurda olmasa da, ruhdan düşmədi. Özünü ifadə imkanını poeziyadan nəsrə yönəltdi. Və elə bu yolla da çox sürətlə ədəbi mühitdə kimliyini sübut elədi. Onun «Dünyada qalsın...» kitabının ön sözündə dostum Sərvaz Hüseynoğlu ilə birgə kiçik bir parçada ruhuna güzgü tutmaq cəhdimiz olmuşdu. «Müəllifin poetik ruhla qələmə aldığı deyimlərdə dərin həyat müşahidələri ümumiləşdirilib. Hər bir cümlənin arxasında həyatın acılıqlarını, şirinliklərini öz ömründə duymuş, yaşamış insanın müşahidələri var. Sanki hər bir cümlə bir həyat hadisəsinin məntiqi yekunudur... Müəllif bəlkə də bir hadisəni hekayə kimi də işləyər, sonunda deyim şəklində təqdim elədiyi fikrin məntiqi yekununa gələrdi. Amma Hadisəni ixtisar edir, əhvalatı danışmır, təkcə yekunu təqdim edir. Bununla da oxucuya düşünmək imkanı verir. Əslində, hər bir müəllif hadisənin bütün ağırlığını təxəyyülündə bişirərkən özündə keçirir. Dəqiq fikir, düşüncə məhsulu kimi təqdim olunan deyimlər həmin ağırlığın yükünü oxucuya ötürür. Bununla da sanki qandəyişmə prosesi gedir.

Müəllif-oxucu arasındakı bu münasibət donor missiyası daşıyır. Oxucu müəllifin ruhu üstə köklənmiş olur. Və demək, dəqiq fikir ifadə edən deyimin tələbləri oxucunun mənəvi aləmində öz təsdiqini tapır.

Əvəz Süleyman ağ üzün, munis qəlbin yazarıdı, "kişini ev-eşik tutmaz" düşüncəsi bütün reallığı ilə onun gündəlik fəaliyyətindən keçir..

Əvəz müəllim "Sirrini anana de, anan olmasa bacına de, bacın olmasa, divara söylə" dünyagörmüşlüyünə varana qədər çox ötəri həvəslərin viranəliyinə qəlbən yas tutub, "Yayda yorul, qışda yat" ahıllığı çəkib.

Dünyanın gedişatını təkcə özün üçün yır-yığış etmək ədəbdən deyil. Gərək sənə verilənləri abidəyə çevirə biləsən - tamaşasına el dura.

Yetər ki, Əvəz Süleymanın yazdıqlarını bəsirət gözüylə oxuya biləsən. Fəhm edəsən ki, müəyyən kəm-kəsirinə, çatışmazlığına baxmayaraq, bu yazılarda saf, Allaha sayqılı, insana yanımlı bir ruh dipdiridi, burada əxlaqi bir rahatlıq var.

Beləcə, Əvəz Süleyman ədəbi mühitdə sözü ilə qədərincə göründü. 70 illik yubileyini Yazıçılar Birliyinin Natəvan Klubunda qeyd elədik. Fəal yaradıcılıqla 15 ildən də bir qədər az məşğul olsa da, kifayət qədər zəngin bir irs qoyub getdi.

Ağır, təmkinli davranışı, sakit görkəmi dünya ilə haqq-hesabını zamanında kəsmiş bir kişinin durumundan xəbər verirdi.

Zarafatı da yerində. Ünvanına yönələn atmacaları da kəskin məntiqi ilə cavabsız qoymazdı.

İnsan ölümlə asanlıqla barışmır.

Yaz ölümləri məni həmişə çox təəssüfləndirir. Qışın ağırlığından keçib, yazın nəfəsin yeni fəslə çağırarkən, dünyadan köçməyin özü ayrı bir acılıqdır.

Süleymanı saxlamayan dünya Əvəz Süleymanı cismən apardı. Dünyada qalan yazıçı Əvəz Süleymandır - dərd yazanın dərdini bilən Əvəz Süleyman.

Yaz yolundan qalmayacaq. Təbiət yenə əzəlki gedişatında olacaq. Əvəz Süleymanın əsərlərini oxuyan hər kəsin ruhunda təzə bahar çiçəkləri açacaq.

Ölümün xeyir Əvəz Süleyman. Bir gün Tanrı dərgahında görüşərik.

***Əli Rza XƏLƏFLİ***
***18.03.2019***